Yenilənmişdir: iyun 2024

# Müstəsna hallarda (§36 Abs. 2 u. 3 AufenthG) valideynlərin köçməsi və ailə birləşməsi- məlumat vərəqəsi

**2024-cü il martın 1-də və ya bu tarixdən sonra ilk dəfə yaşamaq icazəsini** alan mütəxəssislər 1 mart 2024-cü il tarixindən etibarən valideynlərini və qayınata-qayınanasını (əgər həyat yoldaşı da Almaniya daim yaşayırsa) öz yanına gətirə bilərlər.

Nəzərə alın ki, yuxarıda göstərilən tələblər yerinə yetirilmədikdə, Almaniyada yaşayan yetkinlik yaşına çatmış övladın valideynləri ilə və ya valideynlərin yetkinlik yaşına çatmış övladları ilə ailə birləşməsi yalnız müstəsna halların qarşısını almaq üçün mümkündür (§36 Abs. 2 u. 3 AufenthG). Bir ailə üzvünün digər ailə üzvünün yardımından asılı olduğu və bu yardımın yalnız Almaniyada təmin ediləbiləcəyi hallar (məsələn, xüsusi qayğıya ehtiyac olduğu üçün) müstəsna hallardır. Halın xüsusi müstəsna hal kimi hesab edilməsinin əsaslandırılması hər bir halın fərdi xüsusiyyətlərindən asılıdır (məsələn, xəstəlik, əlillik, qayğıya ehtiyac, psixoloji sıxıntı). Müstəsna hesab olunmayan hallar, məsələn: əlverişsiz təhsil, iqtisadi, sosial və digər şərait və əgər öz vətənində zəruri qayğı ilə qəbul edilə bilən şəkildə təmin edilirsə. Viza prosesi çərçivəsində müstəsna hala dair müvafiq sənədlər təqdim edilməlidir.

Milli viza ilə bağlı **ümumi məlumatlarla** əvvəlcə tanış olmağınızı xahiş edirik.

Sənədlərə baxılma müddəti orta hesabla 3 ay, bəzi hallarda daha artıq davam edir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

| **Viza ərizəsi üçün sənədlərin siyahısı**<br>Hər bir ərizə ilə aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| ☐ Ən azı 2 boş vərəqi olan etibarlı xarici pasport *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizalar və, möhürlər səhifələrin 1 ədəd surəti)* |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya əcnəbilərə verilən etibarlılıq müddəti qüvvədə olan Azərbaycanda yaaşamaq icazəsi *(əsli + 1 ədəd surəti)* |
| ☐ 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |
| ☐ 2 ədəd biometrik pasport şəkli (3,5 x 4,5 cm; 6 aydan köhnə olmamalı) |
| ☐ Viza rüsumu (bax: milli viza ilə bağlı ümumi məlumatlar) |
| ☐ Ərizəçinin şəxsi məlumatlarını və onun ünvanını əks etdirən Almaniyada yaşayan yetkinlik yaşına çatmış övlad/ailə üzvü tərəfindən göndərilmiş qeyri-rəsmi dəvətnamə |
| ☐ Dəvət edən şəxsin doğum və ya övladlığa götürülmə haqqında şəhadətnamə vasitəsi ilə qohumluğun sübutu *(əsli + 1ədəd surəti)* |
| ☐ Yaşayış yerindən arayışın surəti (surətləri) |
| ☐ Mütəxəssisin qayınata-qayınanasının köçməsi üçün əlavə sənəd : mütəxəssisin həyat yoldaşının Almaniyada üzünmüddət yaşayacağının təsdiqi (yaşayış icazəsinin surəti) |

| **§ 36 Abs. 2 AufenthG müvafiq müstəsna hallarda mütləq şəkildə təqdim olunmalı əlavə sənədlər:** |
|---|
| ☐ Almaniyaya köçməyi qaçılmaz edən müstəsna halın səbəblərini təsdiq edən ətraflı və aktual sənədlər, məsələn: aktual həkim rəyi, ehtiyacı olanlara qayğı göstərən müəssisə, evdə sosial-məişət xidmət, Sosial Xidmətlər Agentliyi tərəfindən arayış, uşaq bağçaları və s. *(əsli + 1ədəd surəti)* |

| Viza proseduru bitdikdən sonra həmişə təqdim edilməli sənədlər: |
|---|
| ☐ Səyahət sığortası (etibarlılıq müddəti:90 gün, minimal sığorta məbləği 30.000 avro, bütün Şengen dövlətləri üçün etibarlı, nəzərdə tutulan səfərin ilk günündən qüvvədə olmalı ) **yaxud** |
| ☐ Alman tibbi sığorta şirkətinin artıq mövcud sığorta təminatı haqqında təsdiqi. Ailə sığortası yalnız Almaniyada yaşamağa başladığınız vaxtdan qüvvəyə mindiyi üçün ölkəyə daxil olduqdan sonra ilk 10 gün üçün səyahət sığortası təqdim edilməlidir. |

**Xahiş olunur nəzərə alasınız ki, Sizin Azərbaycanda verilən ailə vəziyyətinə dair sənədləriniz və məhkəmə qərarları (məs.: qəyyumluq haqqında, övladlığa götürmək haqqında məhkəmə qərarları) leqalizasiya olunmuş şəkildə təqdim edilməlidir. Leqalizasiyaya dair məlumatları Siz buradan əldə edə bilərsiniz: https://baku.diplo.de/az-az/service/-/2214626**

Sənədlərin baxılma zamanı Almaniyadakı miqrasiya idarəsi (Ausländerbehörde) Almaniyada yaşayan yetkinlik yaşına çatmış övlad tərəfindən ərizəçinin sosial yardım almadan **yaşam xərclərinin maliyyələşməsi**, eləcə də siğorta xərclərininin öz üzərinə götürmə imkanını və kifayət edəcək ölçüdə mənzilin olub-olmamasını yoxlayacaqdır. Bununla bağlı Almaniyadakı miqrasiya idarəsi (Ausländerbehörde) Sizin Almaniyada yaşayan övladınızla əlaqə yaradacaqdır. Buna görə də sənədləri verərkən yetkinlik yaşına çatmış övladınıza dair məlumatların tam və doğru, dəqiq və oxunaqlı yazılmasına diqqət yetirin.